İPƏK YOLU, No.4, 2025, səh.207-214
https://doi.org/10.30546/SI.2025.4.6.558

# UELS MİFOLOGİYASI VƏ ƏDƏBİYYATINDA KİMMER MOTİVLƏRİ
## (Tarixi-mifoloji kontekstdə)

**Türkanə İbrahimova**

Azərbaycan Turizm və Menecement Universiteti, Bakı, Azərbaycan
e-mail: ibrahimovaturkana.86@gmail.com

**Xülasə.** Məqalədə qədim Kimmer tayfasının arxeotiplərinin Uels mifologiyası və ədəbi ənənəsində simvolik rezonansı və tarixi-mifoloji transformasiyası araşdırılmışdır. Uelsin Preiddeu Annwn və Englynion y Beddau kimi mətnlərində kimmer motivlərinin izlərinə rast gəlinir. Tarixlə real əlaqəsi olmayan bu paralellər mifoloji yaddaşın və liminal qəhrəmanlığın təcəssümü kimi təhlil olunur. Liminallıq keçid hallarını (həyat/ölüm, məlum/naməlum) ifadə edən antropoloji anlayış kəsb olunur. Məqalədə bu motivlərin funksional strukturu Georges Dumézil-in müqayisəli mifologiya yanaşması (1990) (Mədəniyyətlərarası mifləri müqayisə edən akademik sahə kimi universal arxeotipləri və tarixi əlaqələri müəyyən etmək məqsədi daşıyır); Jan Assmannın mədəni yaddaş nəzəriyyəsi (2008) (Nəsillər arasında mətnlər, rituallar və simvollar vasitəsilə qorunan kollektiv xatirələri əks etdirir); Carl Jung-un arxetiplər nəzəriyyəsi (1964) çərçivəsində araşdırılmışdır. Məqsəd, miflərin sadəcə mədəni ornament deyil, eyni zamanda mədəniyyətin kollektiv ruhuna işləyən semantik mexanizm səciyyəsi daşıdığını göstərməkdir. Uelsdə Kimmeriya sadəcə coğrafi yox, psixomifoloji məkana çevrilirərək qəhrəmanlıq və unudulma arasında dumanlı sərhəd zonası təşkil edir.

**Açar sözlər:** Kimmerlər, Uels mifologiyası, duman simvolizmi, Annun, Homer axirəti, müqayisəli mifologiya, liminallıq, mədəni yaddaş, C.K. Povis.

## CIMMERIAN MOTIFS IN WELSH MYTHOLOGY AND LITERATURE
### (In a historical-mythological context)

**Turkana Ibrahimova**
*Azerbaijan University of Tourism and Management, Baku, Azerbaijan*

**Abstract.** This article explores the symbolic resonance and mytho-historical transformation of the archetypes of the ancient Cimmerian tribe in Welsh mythology and literary tradition. Traces of Cimmerian motifs appear in Welsh texts such as Preiddeu Annwn and Englynion y Beddau. Although lacking direct historical connection, these parallels are interpreted as representations of mythological memory and liminal heroism. The concept of liminality, an anthropological term, denotes transitional states (life/death, known/unknown) and helps elucidate these narratives. The article examines the structural function of these motifs within three theoretical frameworks: Georges Dumézil's comparative mythology (1990), which studies cross-cultural myths to identify universal archetypes and

## КИММЕРИЙСКИЕ МОТИВЫ В ВАЛЛИЙСКОЙ МИФОЛОГИИ И ЛИТЕРАТУРЕ
### (В историко-мифологическом контексте)

**Туркана Ибрагимова**
*Азербайджанский Университет Туризма и Менеджмента, Баку, Азербайджан*

**Резюме.** Настоящая статья исследует символическую резонансность и мифо-историческую трансформацию архетипов древнего племени киммерийцев в валлийской мифологии и литературной традиции. Следы киммерийских мотивов обнаруживаются в валлийских текстах Preiddeu Annwn и Englynion y Beddau. Хотя прямой исторической связи нет, эти параллели интерпретируются как выражение мифологической памяти и лиминального героизма. Понятие лиминальности (антропологический термин) означает переходные состояния (жизнь/смерть, известное/неизвестное) и помогает интерпретировать эти повествования. Мотивы анализируются с опорой на три теоретические модели: Сравнительная мифология

historical relations; Jan Assmann's cultural memory theory (2008), which analyzes how collective memories are transmitted through texts, rituals and symbols across generations; Carl Jung's archetype theory (1964), which interprets mythic patterns as projections of the collective unconscious. The aim is to demonstrate that myths are not merely decorative elements of culture but operate as semantic mechanisms of the cultural psyche. In the Welsh context, Cimmeria transforms from a geographical region into a psychomythological realm - a mist-laden border zone between heroism and oblivion.
**Keywords:** Cimmerians, Welsh mythology, mist symbolism, Annwn, Homeric underworld, comparative mythology, liminality, cultural memory, J.C. Powys.

Жоржа Дюмезиля (1990), изучающая межкуль-турные мифы с целью выявления универ-сальных архетипов и исторических связей; Теория культурной памяти Яна Ассмана (2008), объясняющая, как коллективные воспоминания сохраняются через тексты, ритуалы и символы; Теория архетипов Карла Юнга (1964), рассмат-ривающая мифологические образы как проек-ции коллективного бессознательного. Цель исследования - показать, что мифы - это не прос-то культурные украшения, а семантические механизмы, формирующие культурную душу. В валлийском контексте Киммерия превращается не в географическое, а в психомифологическое пространство - туманную пограничную зону между героизмом и забвением.
**Ключевые слова:** Киммерийцы, Валлийская мифология, символизм тумана, Аннун, гоме-ровский загробный мир, сравнительная мифо-логия, лиминальность, культурная память, Дж.К. Поуис.

## 1. Giriş

Kimmerlər eramızdan əvvəl IX-VII əsrlərdə Qara dəniz-Xəzər çöllərində yaşamış, Assuriya və yunan mənbələrində sərhəd bölgələrin atlı döyüşçüləri kimi bilinən qədim köçəri tayfa olmuşdur. Assuriya salnamələrində onlar "Qimirri" kimi tanınır [3, s.29], **Herodotun** əsərlərində isə şimal sərhədlərindən gələn dağıdıcı və vəhşi tayfa kimi təsvir olunur [6]. Bu xalqın siyasi və hərbi səhnədən qəfil itməsi, tarixdən ardı-arası kəsilmiş şəkildə yoxa çıxması alimlərin diqqətini cəlb etmiş və onların taleyini əfsanəvi boyutda anlatmağa səbəb olmuşdur.

Homerin *Odissey* dastanında Kimmerlər "*günəşsiz duman torpaqları*"nda - *Hades*in sərhədində, ruhların dolaşdığı yeraltı dünya ilə yerüstü aləm arasındakı liminal bölgədə yerləşdirilir [7]. Bu təsvir coğrafi yox, *kosmo-mifoloji* xarakter daşıyır: burada Kimmerlər artıq tarixi etnos deyil, unudulmaqla xatırlanmaq arasındakı keçid məkanında yaşayan kölgə fiqurlarına çevrilir, bu da coğrafi reallıqdan daha çox *metafizik məkanın poetik simvoludur*. Burada artıq fiziki torpaqdan yox, *psixomifoloji zonadan* söhbət gedir [15]. Məhz bu keçid momentini izah etmək üçün antropoloq *Viktor Turnerin "liminal fiqur*" anlayışı faydalıdır [21]. Liminal fiqur nə tam "bu dünyaya", nə də "o dünyaya" məxsusdur; o, keçid mərhələsində, sərhədlərin pozulduğu və simvolların gücləndiyi məkanda mövcud olan varlıqdır. *Kimmer obrazı* da bu aralıq vəziyyətin simvolu kimi tarixi etnos olaraq yox olan, ancaq mifdə davam edən kollektiv kölgə kimi təqdim olunur.

***Uels mifoloji ənənəsində*** isə Annun - ölüm, qəhrəmanlıq və ruhun transformasiyası ilə əlaqələndirilən paralel dünya kimi təqdim olunur. Bu dünya eyni zamanda *keçilməz, dumanla örtülü və qadağan olunmuş bir məkandan* ibarətdir. Bu təsvirlər Homerin Kimmer məkanına bənzər şəkildə qurulmuşdur və bir-birindən xəbərsiz iki mədəniyyətin *psixomifoloji paralelliyini* nümayiş etdirir. Duman burada yalnız fiziki təbiət elementi deyil, həm də *mədəni*

*yaddaş və unudulmuş qəhrəmanlıqların arasında çəkilmiş simvolik pərdə* rolu oynayır. Uels miflərindəki tarix səhnəsindən silinmiş, lakin mifdə kölgəsi qalmış qəhrəmanlarla Kimmerlər eyniləşir. Bu baxımdan, *məqalənin məqsədi* Kimmer motivlərinin Uels mədəniyyətində və ədəbiyyatında necə simvolik şəkildə yenidən formalaşdığını, mifin vasitəsilə tarixdən mədəni yaddaşa keçid etdiyini və bu prosesdə liminallıq, unudulma və qəhrəmanlıq kimi arxetiplərin necə fəaliyyət göstərdiyini araşdırmaqdır. Herodotu "Tarix" əsərindən götürülmüş bir nümunəyə nəzər salaq: "*Kimmerlər yoxa çıxdı - yalnız kölgələri duman içində qaldı*" [6]. Burada müəllif kimmerlərin artıq mövcudluğunun sona çatdığına istinad etmişdir.

## 2. Metod və metodologiya

Bu məqalədə ***tarixi-mifoloji və koqnitiv-müqayisəli yanaşmaların*** sintezi üzərində qurulmuşdur. Kimmer motivlərinin Uels mifologiyası və ədəbiyyatında simvolik rezonansını, mədəni yaddaş mexanizmlərini və arxetipik davamlılığını ortaya çıxarmaq başlıca məqsədi təşkil edir. Mövzunun tədqiqi zamanı aşağıda qeyd olunan bir sıra metod və yanaşmalardan istifadə olunmuşdur:

***Georges Dumézilin "Müqayisəli mifologiya" yanaşmasında*** Uels mətnlərində (məsələn, Preiddeu Annwn, Englynion y Beddau) yer alan motivlər Kimmerlər haqqında antik mənbələrlə (Homerin Odisseyasında "Kimmerlər ölkəsi", Assur qaynaqları, Herodotun təsvirləri) müqayisə edilir [2].

***Jan Assmannın "Mədəni yaddaş" yanaşmasında*** Uels ədəbiyyatında kimmer motivlərinin nəsillər boyu şifahi poeziya, mif və ritual kodlar vasitəsilə qorunması araşdırılır. Bu yanaşma göstərir ki, Kimmerlər "tarixi xalq" olmaqdan daha çox "mifik yaddaş" fenomeni təşkil edir [1].

***Carl Jungun "Arxetip analizi" yanaşmasına,*** əsasən, Kimmer motivləri "sərhəd-keçid arxetipi" (liminallıq), "kölgə arxetipi" (qaranlıq, duman) və "qəhrəmanlıq sınağı" kimi universal psixomifoloji strukturlar əsasında təhlil olunur [15].

Bir çox digər məqamlarda "***Tarixi-mifoloji kontekstləşdirmə***" metodundan istifadə olunur. Kimmerlərin real tarixi mövcudluğu ilə onların mifoloji təcəssümü arasında fərqlər araşdırılaraq onların Uels mifologiyasında "geosiyasi fakt" yox, "psixomifoloji məkan" kimi funksionallaşmasını diqqət mərkəzinə çəkir.

Müəyyən hallarda isə ***filoloji-tekstoloji təhlil metodundan*** istifadə olunmuşdur. Burada Uels mətnləri orijinal və tərcümə variantları əsasında analiz olunaraq motivlərin dil və üslub səviyyəsində təzahürləri araşdırılır.

## 3. Tarixə nəzər

Kimmerlərin maddi izlərinə ***Çernoqorovka-Novoçerkassk*** kompleksində təsadüf olunur. Bu, e.ə. IX-VII əsrlərdə Pont-Qara dəniz çöllərində yaranan erkən köçəri simvolist nomad mədəniyyətdir. Arxeoloji və tarixi axtarışlar nəticəsində əldə edilən maddi nümunələrin ***Kimmer*** və daha sonra gələn Skif mədəniyyətləri ilə yaxın əlaqəsi sübuta yetirilmişdir. Bu

kompleksin mədəni izləri Kimmerlərin e.ə VIII-VII əsrlərdə Qafqaza və Anadoluya köçdüklərinə dəlalət edir. Bu mədəniyyətin material irsi - zirehli qəbir quruluşları, at aksesuarları, xəncərlər - Kimmerlərin *qəhrəmanlıq, savaş konsepsiyasının arxetip strukturuna* aiddir. Beləliklə, Çernoqorovka-Novoçerkassk kompleksi həm arxeoloji, həm də simvolik baxımdan Qara dəniz çöllərində formalaşan ilk nomad mədəniyyətlərdən biri kimi mühüm rol oynayır. Bu kompleksdəki tapıntılar, həm Kimmerlərin *etno-mifoloji köklərini,* həm də sonralar Şimali Avropada təzahür edən mifik simvolların (*duman, yarım unudulmuş qəhrəmanlar*) mahiyyətinin açılmasına xidmət edir. Çernoqorovka-Novoçerkassk mədəniyyəti çərçivəsində arxeoloji tapıntılar - zəncir ağızlıqlar və tunc qılınclar kimi sübutlar onların süvari döyüşçü xalq olduğunu təsdiqləyir [20, s.50].

Skiflərin təzyiqi nəticəsində tarix səhnəsindən silinmələri onların mifoloji "*kölgə xalq*"a çevrilməsi ilə nəticələnmişdir [14, s.112].

**4. Uels Mifologiyasında Duman və Liminallıq**

Uels ədəbiyyatının ən qədim poetik mətnlərindən biri "***Preiddeu Annwn***" [10] Uels dilində: *Preiddeu Annwfn*, mənası: "*Annunun talanı*" və ya "*Axirətin qənimətləri*" əsəri hesab olunur. Bu əsər *IX-X əsrlər* arasında yazıldığı güman edilən və "*Taliesin Kitabı*" adlı orta əsr əlyazmasında qorunub-saxlanılmışdır. Əsər kral *Arturun* və onun döyüşçülərinin ***Annun*** adlı mifoloji aləmə - ölüm dünyasına və ya axirət ölkəsinə etdiyi sirli səyahəti təsvir edir. Onlar burada müxtəlif qalalara, o cümlədən məşhur ***Caer Siddi***, ***Caer Wydr*** ("Şüşə qala") və s. kimi simvolik məkanlara daxil olmağa çalışırlar. Bu mifik yerlər dumanla örtülü və qorunan, qeyri-mümkün girişi olan məkanlar kimi təsvir olunur.

***tra chaer wydyr ny welsynt wrhyt Arthur –***
Beyond the Glass Fortress they did not see the valor of Arthur.
***Tri vgeint canhwr aseui ar y mur -***
Six thousand men stood upon the wall.
***oed anhawd ymadrawd aegwylyadur -***
It was difficult to speak with their sentinel [10].

Əsərin ***ədəbi-mifoloji təhlili*** nəticəsində aşağıdakıları qeyd etmək mümkündür:

- Əsər ***liminal keçid*** motivi ilə yüklüdür: burda canlılar dünyasından ölülər dünyasına keçid, fiziki ilə metafiziki aləmin sərhədləri göstərilir.
- *Duman, şüşə, qala, dəniz* kimi simvollar ***mifik sərhəd və sirr*** anlayışlarını daşıyır.
- Burada kral Artur ***qəhrəman-şaman*** arxetipində təqdim olunur: o, yalnız fiziki cəngavər deyil, həm də mənəvi səyyahdır.
- Mətndə tarix və mif bir-birinə nüfuz edir və burada konkret hadisələrdən çox ***simvolik təhlil və poeziya*** əsas yer tutur.

*Preiddeu Annwn da* kral Arturun dumanlı dənizlərdən keçərək "şüşə qala"ya (Caer Wydr) səyahəti təsviri *Homerin Kimmer torpağı ilə paralellər* təşkil edir. Burada əsas simvolik elementlər bunlardır:

- **Qeyri-mümkün giriş:** buranın qadağan edilmiş məkan olmasına dəlalətdir.
- **Duman:** unudulanla xatırlanan arasındakı keçidi bildirir [5, s.440].
- **Əcdadlıq yaddaşı:** keçmiş qəhrəmanların sirli şəkildə yaşaması məlum olur.

Uels ədəbiyyatının digər kimmer motivləri daşıyan nümunəsi ***Englynion y Beddau*** ("*Qəbir şeirləri" və ya "Qəhrəmanların məzarı haqqında şeirləri"*) əsəri hesab olunur. Dumanlı qəhrəmanlardan bəhs edən bu əsər *XII-XIII əsrlərə* aid edilən poetik topludur. "Englynion y Beddau" və ya "Böyük Britaniya adasının döyüşçülərinin məzarları" kimi tanınan bu əsər, erkən Uels ədəbiyyatının məşhur bir şeir toplusudur. Bu əsərdə qədim Uels qəhrəmanlarının, kral və döyüşçülərinin məzarlarının yerləri qeyd olunur. Əsasən, XIII əsrdə yazıya alınmış "Qara Karpartan Kitabı"nda qorunub-saxlanılmışdır və Uels mifologiyası, tarixi və folkloru üçün çox əhəmiyyətlidir.

"*Taliesin Kitabı" və digər Orta Uels əlyazmalarında* saxlanılan bu mətnlər dumanlı təpələrdə dəfn olunmuş qəhrəmanlardan bəhs edir. Bu əsərdə müxtəlif qədim Uels qəhrəmanlarının - adətən, artıq unudulmuş və mifləşmiş fiqurların - məzarları haqqında qısa poetik fraqmentlər verilir. Hər şeir müəyyən qəhrəmanın adı ilə başlayır və onun hansı ərazidə dəfn olunduğu, necə şəhid olduğu, hansı xüsusiyyətlərə sahib olduğu kimi məlumatları təqdim edir. Əsərin ədəbi-mifoloji təhlili aşağıdakı kimidir:

- Bu şeirlər ***kollektiv yaddaş*** *və* ***mnemotik poeziya*** (şifahi yaddaş vasitəsi ilə ötürülmə) funksiyasını daşıyır.
- Adı çəkilən qəhrəmanların çoxunun məzarı *dumanlı təpələr, keçilməz bataqlıqlar, dağlar* kimi liminal məkanlarla əlaqələndirilir - bu, *Kimmerlərin unudulmuşluq motiv*i ilə paralellik yaradır

Əsərin hər bəndi (englyn) hansısa bir qəhrəmanın məzarının yerləşdiyini məkanı təsvir edir. Məzarlar, adətən, təbii qayalar, dağlar, çay kənarları və ya xarabalıqlar kimi xarakterik landşaft elementləri ilə assosiasiya olunur.

Forma etibarilə şeirlər "englyn" adlanan ənənəvi Uels şeir formasında yazılıb. Hər bir misrada müəyyən sayda heca və qafiyə quruluşu var.

Əsərin ilk variantlarının IX-X əsrlərdə yarandığı fərz olunur. Uels dilində olan bu şeirlər sonradan yazıya alınmışdır.

Kral Artur dövrü və digər məşhur şəxsiyyətlərlə bağlı məlumatlar da daxil olmaqla qədim Uels tarixi və əfsanələri haqqında məlumat verən bu əsər tarixi, mifoloji və ədəbi təhlil cəhətdən böyük əhəmiyyət kəsb edir. Mətnin məşhur bir hissəsində deyilir:

***"Bet mab Ossvran yg Camlan, gvydi llauer kywlavan. bet Bedwir in alld Tryvan".***

*"The grave of Osfran's son (is) at Camlan, after many a slaughter; the grave of Bedwyr (is) on the slope of Tryfan"* [8].

“Osfranın oğlunun məzarı Kamlandadır, sayısız qırğından sonra; Bedvirin məzarı isə Trifanın yamacındadır”.

***“Priddir y werin ym mhob cantref, Yn y gors, yn y graig, yn y gromlech”*** [13].

“Hər kənddə xalqın məzarları var, Bataqlıqda, qayalarda, qəbir daşlarında”.

Sims-Williams yazır ki, onların *izsiz itmiş Kimmerlilər kimi* [18, s.189-191] yalnızca adları var, lakin məzarları naməlumdur. Bu əsər, ***Assmann*** nəzəriyyəsindəki **“*mədəni yaddaş boşluğu*”** (mnemohap və ya mnemonic gap) fenomenini [1, s.45-58] təcəssüm etdirir: tarixdən kənarda qalan, lakin mifoloji dəyər qazanan qəhrəman obrazları vasitəsi ilə bu, tarixdən yaddaşa keçidi bildirən bir hadisə mahiyyəti qazanır.

**“*Orta əsr Uels genealogiyası və onun kontekstləri*”** əsərində **Ben Guy** “Englynion y Beddau” əsərini geniş genealogiya və topoqrafiya tədqiqatları kontekstində yerləşdirir və istinad edir [4].

## 5. Müasir baxış. POVİS və psixomifoloji Kimmeriya

Con Kauper Povis *Ducdame* romanında **“**Kimmer ölkəsi” adlandırdığı mifik bir məkanı təsvir edir. Povis kimmer hökmdarlarından birini “*Dugdamme*” adlandırır və “Ducdame” yəni kimmer ölkəsi mifini bir növ psixoloji sığınacaq kimi inkişaf etdirir. Bu məqamda mif tarixə qalib gəlir, belə ki o, insan ruhunun coğrafiyasını xəritələşdirir [16, s.114].

O, kimmer təsviri Uels mifoloji və təbiət ünsürləri ilə əlaqələndirir və müəyyən məqamlarda “*Kelt/Uels*” kimliyini *kimmer* anlayışı ilə yaxınlaşdırır. Gizliliyə meyl və işıqla qaranlığın sərhədində yerləşmək, daxili aləmlə bağlılıq kimi xüsusiyyətləri qeyd edir.

Povisin təsvir etdiyi Kimmerlərin vətəni Uels dağlarında yerləşən, əcdadların dumanlı fısıltıları ilə nəfəs alan mənəvi məkandır [16]. Povis Kimmer motivindən mənəvi və psixoloji bir sığınacaq kimi istifadə edir. Müəllif Kimmeriyanı “*narahat edilməyən alatoranlığın*” hökm sürdüyü, unudulmuş tanrıların kölgə kimi dolaşdığı, səssiz dumanların və dərin sakitliyin məskəni olan bir diyar kimi canalndırmışdır [9].

*“...that mysterious country of the underworld of which the Greek wanderer had his vision, coming to it at last through those Cimmerian mists”* [9].

Burada artıq *tarix deyil, arxetiplər və kollektiv şüuraltı* [15] ön plana çıxır. Kimmer obrazı universal “*liminal qəhrəman*” modelinə çevrilir. Bu, həm *kollektiv kimlik axtarışının, həm də mədəni yaddaşın poetik təzahürüdür*.

**Nəticə.** Aparılan araşdırma göstərir ki, *Kimmer obrazları Uels mifologiyası və ədəbiyyatında* sadəcə tarixi reminissensiya kimi deyil, həm də *mədəni liminallığın simvolik daşıyıcısı* kimi funksional şəkildə yaşamağa davam edir. Onların real tarixdən silinməsi, lakin mifoloji diskursda daha da mərkəzi və arxetipik fiqura çevrilməsi kollektiv yaddaşın və mədəni semantikanın necə işlədiyini nümayiş etdirir. Bu transformasiya aşağıdakı üç əsas semantik və konseptual vektorda cəmlənir:

- **Liminal Simvolizm:** "Duman" obrazı həm Kimmerlər, həm də Uels mifoloji mətnlərində keçid, ikilik və qeyri-müəyyənlik hallarını simvolizə edən əsas semantik markerə çevrilir. Burada duman yalnız fiziki atmosfer elementi deyil, həm də diskursiv keçid zonasıdır - o, tarixi faktla mifik təxəyyül arasında sərhədi bulanıqlaşdırır. Bu mənada, duman "liminal məkanın dilidir" - yaddaşla unudulma, həyatla ölüm, tarixlə mifologiya arasındakı osmotik zonadır.
- **Heroik Dissolüsiya (Qəhrəmanlığın Simvolik Dağılması):** Həm Kimmerlərin, həm də Uels qəhrəmanlarının izsiz yoxa çıxması - adları qalsa da, məzarlarının və ya dəqiq tarixlərinin olmaması - onların "itmiş qəhrəmanlar" statusunu qurur. Bu, mədəniyyətdə qəhrəmanlıq fenomeninin təkcə *hərbi və ya tarixi* deyil, həm də *poetik və metafizik statusa malik* olduğunu göstərir. Məzarın olmaması onların mifik sferaya keçməsini təmin edir – qəhrəman yaddaşla qidalanan, zamanın fövqündə duran *semiotik fiqura* çevrilir.
- **Trans-tarixi Modelləşmə:** Kimmerlərin Uels mifologiyasında simvolik rezonans doğurması, iki birbaşa tarixi əlaqəsi olmayan mədəniyyət arasında arxetipik uyğunluğun mümkünlüyünü göstərir. Bu, *Carl Jung*-un kollektiv şüuraltı və *Jan Assmann*-ın mədəni yaddaş nəzəriyyələri kontekstində izah oluna bilər: fərqli mədəniyyətlər "kölgə xalqları"nı - yəni tarixdən silinmiş, lakin mifik səhnədə yaşayan etnosları simvolik kodlar və şifrəvi narrativ vasitəsilə yaşadır. Bu kodlar əsrlər boyu nəsildən-nəslə ötürülərək mifin tarix üzərində semantik hegemonluğunu qoruyur.

Nəticə etibarilə, Kimmerlərin Uels mədəniyyətindəki simvolik mövcudluğu bir arxeotipin - tarixi yox olmuş, lakin mədəni psixeyə həkk olunmuş kölgə qəhrəmanların mifoloji diskurs vasitəsilə necə yaşadıldığını göstərir. Mif burada sadəcə nağıl deyil; o, *mədəniyyətin özünü anlama və yaddaşın semantik strukturlarını kodlaşdırma formasıdır*. Tarix susanda, mif danışmağa davam edir.

## Ədəbiyyat

1. Assmann J. (2008), Communicative Memory and Cultural Identity. Cambridge: Cambridge University Press, 45-58.
2. Dumézil G. (1990), Gods of the Ancient Northmen. Chicago: University of Chicago Press, 45.
3. Grayson A.K. (1996), Assyrian Rulers of the Early First Millennium BC. Toronto: University of Toronto Press, 29.
4. Guy B. (2020), Medieval Welsh Genealogy and Its Contexts. Cambridge University Press.
5. Haycock M. (2007), Legendary Poems from the Book of Taliesin. Aberystwyth: CMCS, 440.
6. Herodotus (2021), Loeb Classical Library edition, Book IV: 12. https://penelope.uchicago.edu/Thayer/E/Roman/Texts/Herodotus/4a*.html
7. Homer (2018), The Odyssey. Translated by E. Wilson. New York: W.W. Norton & Company, 11, 14-19.

8. https://muse.jhu.edu/pub/91/article/965248
9. https://powys-society.org/event/conf2011/
10. https://web.archive.org/web/20170518195652/https://d.lib.rochester.edu/camelot/text/preiddeu-annwn
11. https://www.academia.edu/27390628/A_Bibliographic_Guide_to_Welsh_Arthurian_Literature
12. https://www.maryjones.us/ctexts/bbc19.html.0
13. https://www.roman-britain.co.uk/
14. Ivantchik, Askold I. (2001) p.112
15. Jung C.G. (1964), Man and His Symbols. New York: Doubleday, 81-103.
16. Moghadam H.S. (2020), Tracking the birth and growth of Cimmeria: Geochronology and origins of intrusive rocks from NW Iran. Gondwana Research, Vol.87, 188-206.
17. Powys J.C. (1936), Ducdame. London: Faber & Faber.
18. Sims-Williams P. (2022), The Book of Taliesin. London: Penguin Classics, 189-191.
19. Sims-Williams P. (2023), The Medieval Welsh Englynion y Beddau. Cambridge: D.S. Brewer. https://www.degruyterbrill.com/document/doi/10.1515/9781805431015/html
20. Tokhtas'ev S.R. (2005), Cimmerians, in Reallexikon der Germanischen Altertumskunde, vol. 5. Berlin: De Gruyter, 50.
21. Turner V. (1969), The Ritual Process: Structure and Anti-Structure. Chicago: Aldine.